*İnzibati ərazi nümayəndəliklərində hesabat yığıncaqları*

# Qəbələ şəhəri inkişaf və tərəqqidədir

***2013-cü ilin yanvar ayında rayon icra hakimiyyətinin qrafiki əsasında Qəbələ rayon inzibati ərazi nümayəndəliklərində ötən il görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr barədə ənənəvi hesabat yığıncaqları keçirilmişdir. Aşağıda Qəbələ şəhər inzibati ərazi nümayəndəliyində keçirilmiş hesabat yığıncağı haqqında məlumat dərc edirik.***



Yığıncağı şəhər inzibati ərazi dairəsinin nümayəndəsi Ramin Əliyev açmış, yığıncaq iştirakçılarını və qonaqları nümayəndəlik adından salamlamışdır. Sonra R. Əliyev 2012-ci il ərzində Qəbələ şəhərinin sosial-iqtisadi inkişafı ilə əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələr barədə geniş məruzə etmişdir. Məruzədə əvvəlcə ötən bir il ərzində respublikamızda, o cümlədən Qəbələ şəhərində əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan islahatların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və əldə olunan nailiyyətlər haqqında danı-şılmışdır.

R. Əliyev hesabat məruzəsində qeyd etmişdir ki, ötən il Qəbələ şəhər əhalisi üçün bir sıra ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Ən əlamətdar hadisələrdən danışarkən məruzəçi qeyd etmişdir ki, ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabr ayının 9-10-da Qəbələ rayonuna səfəri çərçivəsində Qəbələ şəhərinin sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmuş, şəhərin sosial-iqtisadi inkişafı, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi üçün dəyərli məsləhətlərini vermişdir.



Məruzəçi ötən il idarə və müəssisələrin şəhərin abadlaşması, yeni iş yerlərinin açılması, şəhər əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün gördükləri işlərə dair konkret faktlar söyləmişdir.

Hesabat yığıncağında çıxış edən su-kanal idarəsinin rəisi **Tamerlan Həsənov,** şəhər 1 saylı tam orta məktəbin direktoru **Məhəbbət Rüstəmova,** şəhər 3 saylı uşaq bağçasının müdiri **Natəvan Əfəndiyeva,** rayon ağsaqqallar şurasının sədri **Nazim Mustafayev** və başqaları rayon mərkəzində görülən tikinti-abadlıq işlərinin sürətli inkişafından, cənab Prezident İlham Əliyev tərəfindən respublikada Qəbələnin nümunəvi şəhərlərdən birinə çevrilməsi üçün göstərdiyi qayğılardan danışmış və bu qayğıların 2013-cü ildə görüləcək işlərin miqyasının daha da genişləndirilməsi üçün əsaslı stimul olmasından söhbət açmışlar.

Hesabat yığıncağında çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Prezident Administrasiyasının məsul işçisi Əflatun Rufiyev ölkədə, o cümlədən Qəbələdə dinamik sosial-iqtisadi inkişafın təmin edilməsi, Azərbaycan xalqının həyat səviyyəsinin durmadan yüksəldilməsi üçün görülən işlərdən danışmışlar. Natiqlər qeyd etmişlər ki, Qəbələ şəhərinin uğurlu gələcəyi vardır. Yeni iş yerlərinin açılması hesabına yaxın illərdə şəhər əhalisinin sayı xeyli artacaq, hüdudları genişləndiriləcəkdir.

Səbuhi Abdullayev və Əflatun Rufiyev çıxışlarının sonunda əmin olduqlarını bildirmişlər ki, iş adamları, şəhər əhalisi görüləcək işlərin həyata keçirilməsində cənab Prezident İlham Əliyevə və rayon icra hakimiyyətinə yaxından dəstək verəcəklər.

**Oqtay MƏMMƏDOV.**

# Azərbaycanın gənclər siyasəti uğurlu inkişaf yolundadır

## *Gənclərin ümumrayon toplantısından qeydlər*

2 Fevral–Gənclər Günü münasibətilə Qəbələ gənclərinin ümumrayon toplantısı keçirilmişdir. Tədbir iştirakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin şəhərimizin mərkəzində ucaldılmış abidəsi önünə gələrək postament üzərinə gül dəstələri qoymuş, ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra tədbir «Sport» hotelin iclas zalında davam etdirilmişdir.





Tədbiri giriş sözü ilə açan rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov geniş hesabat məruzəsi ilə çıxış edərək Qəbələ gənclərinin əldə etdikləri uğurlardan danışmış, qarşıda duran vəzifələri vurğulamışdır.

Məruzə ətrafında müzakirələrdə çıxış edən Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin sədri Ramil Qəribov, Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi Mədinə Qasımova, gənc yazar Nəzakət Abdullayeva, «N» saylı hərbi hissənin əsgəri Tale Əliyev gəncliyimizin keçdiyi şərəfli yoldan, bu təşkilatın yaranıb təşəkkül tapmasında və bügünkü sürətli inkişafında ümummilli lider Heydər Əliyevin və ölkə Prezidenti İlham Əliyevin əvəzsiz rolu və xidmətlərindən söz açmış, müstəqil respublikamızın gələcək uğurlu inkişafı üçün qarşıda duran vəzifələri vurğulamış, bu vəzifələrin yerinə yetirilməsində gənclərin rolundan danışmışlar.

Tədbirdə iştirak edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev öz çıxışında rayon gənclərinin ictimai-siyasi həyatda, quruculuq işlərində, təhsil, idman və mədəniyyət sahəsində qazandıqları uğurları qeyd etmiş, onlara müstəqil dövlətimizin dinamik və sürətli inkişafında daha böyük qələbələr arzulamışdır.

Sonda bir qrup fəal gənc qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

**Miri RƏHİMOV,**
**«Qəbələ»nin əməkdaşı.**